# Lahıcda zamanın səsi: 77 yaşlı sakinin radio muzeyi

**Bir zamanlar radio hər evin ən qiymətli əşyalarından sayılırdı. Şkafın üzərində və ya evin ən diqqətçəkən hissəsində saxlanılan bu cihazın ətrafına axşamlar bütün ailə üzvləri toplaşardı. Paytaxtdan gələn son xəbərlər, uzaq şəhərlərin sədası və sevilən ifaçıların mahnıları məhz bu "sehirli qutu"dan yayılardı. Radio açılanda evdə hamı susar, o danışardı...**







Bu gün informasiya saniyələr içində yayılsa da, 13 Fevral - Ümumdünya Radio Günü səsli medianın cəmiyyət həyatındakı əvəzsiz rolunu bizə yenidən xatırladır.

AZƏRTAC-ın bölgə müxbiri dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, İsmayıllı rayonunun tarixi Lahıc qəsəbəsində olub, burada radio və televiziya tarixini yaşadan qeyri-adi bir ünvandan reportaj hazırlayıb.

77 yaşlı Lahıc sakini Raci Baxışovun həyəti artıq uzun illərdir ki, qeyri-rəsmi muzeyi xatırladır. Burada müxtəlif dövrlərin şahidi olan radioqəbuledicilər, lampalı qurğular, iriölçülü köhnə televizorlar, lentli maqnitofonlar və antikvar telefon aparatları qorunur.

İxtisasca mühasib olan Raci dayı həm də mahir radio və televiziya ustasıdır. O, istifadə olunmayan bu cihazları zibilliyə atmağa qıymayıb, əksinə, onlara ikinci həyat bəxş edib. Beləliklə, kiçik bir maraq zamanla zəngin bir kolleksiyaya çevrilib.

"Bu cihazların əksəriyyəti ötən əsrin istehsalıdır. Məsələn, bu gördüyünüz 1954-cü ilin radiosudur - bizim evimizin ilk radiosu olub. O vaxtlar siqnal zəif idi, damda hündür antennalar qururduq. Səsi tutanda uşaq kimi sevinirdik", - deyə kolleksiyaçı xatirələrini bölüşür.

Bu kolleksiyanı unikal edən əsas cəhət eksponatların sadəcə vitrin bəzəyi olmamasıdır. Raci Baxışovun toxunuşu ilə onların demək olar ki, hamısı işlək vəziyyətdədir.

"Bir çox muzeydə əşyalar cansızdır, sadəcə baxmaq üçündür. Amma mən istəyirəm ki, insanlar o səsi duysunlar. Qonaqlar gələndə yarım əsr əvvəlin texnologiyasının hələ də cızıltısız səslənməsinə heyrət edirlər", - deyə usta vurğulayır.

Raci dayı üçün radio həm də bir təxəyyül mənbəyidir. Onun fikrincə, radio görüntü vermədiyi üçün insan eşitdiklərini öz xəyalında canlandırır və bu, hər kəsdə fərqli bir dünya yaradır. O, bu gün də Azərbaycanın radio kanallarını mütəmadi olaraq dinlədiyini deyir.

Texnologiya nə qədər sürətlə inkişaf etsə də, radionun yeri fərqlidir. Sosial şəbəkələr sürət vəd edir, radio isə səmimiyyət və canlı ünsiyyət. Lahıcın daş döşənmiş dar küçələrində at nalının səsi duyulanda hiss edirsən ki, bəzi dəyərlər illərə meydan oxuyur.

Lahıcdakı bu kiçik muzey bizə bir daha sübut edir ki, zaman dəyişsə də, insan ruhuna toxunan səmimi bir səsin oyatdığı duyğular dəyişmir.

Azərbaycan.- 2026.- 14 fevral (№ 29).- S.10.